**Marneulidə su təminatı işlərində işləyənlərin hüquqlarını qorumaq üçün məhkəməyə müraciət edirik**

2021-ci ilin 25 noyabrında Bolnisi Rayon Məhkəməsi Marneulidə su təminatı və kanalizasiya sistemi işlərində işləyən bir neçə şəxsin şikayətini icraata götürmüşdür. Şikayət fəhlələr tərəfindən əmək haqlarının haqlı tələbinə əsaslanmışdır. Şikayətçilər xarici müəssisə olan Akelik qrup Açıq Səhmdar Cəmiyyətinin filialından işçilərin nəfinə əmək haqlarının verilməsini tələb edirlər.

Qeyd etmək lazımdır ki, Akelik qrupun gürcü filialının yerinə yetirdiyi su təminatı sistemi işləri Asiya Bankı tərəfindən Şəhər Xidmətlərini Yaxşılaşdırmaq üzrə İnvestisiya Proqramı çərçivəsində maliyyələşdirilir. Yerli media ilə söhbətlərində Dövlət nümayəndələri layihə ilə müəyyənləşdirilmiş məbləğin şirkətə köçürüldüyünü, lakin şirkət tərəfindən əmək haqlarının yenə də ödənilmədiyini bildirir.

400-ə qədər zəhmətkeş insan, o cümlədən şikayətçilər də, ağır maliyyə şəraiti, müxtəlif öhdəlikləri, gündəlik ehtiyacları, çoxuşaqlı ailələri, azyaşlı uşaqları ilə birlikdə artıq 8 aydır ki, işə götürənin ədalətsiz və qanunsuz davranışları qurbanıdır. Onların əksəriyyəti yaşlı və alternativ iş tapmaq şansından az qalsın məhrum qalacaq adamlardır. Şirkət onların ağır maliyyə vəziyyətindən və səbrindən daima sui-istifadə edir, öz hüquqlarının qanuni şəkildə müdafiə yollarından vaz keçirtməyə çalışır.

Məhkəmə mübahisəsindən əvvəl işçilər əmək haqlarını müxtəlif qanuni yollarla almağa çalışır, bilavasitə şirkətin nümayəndələri ilə daima danışıqlar aparırdılar. Problemi yerli özünüidarəetməçilik nümayəndələrinin iştirakı ilə də həll etməyə cəhd etdilər. Maaşlarını almaq tələbi ilə bir neçə aksiya da keçirdilər, lakin bu heç bir nəticə vermədi.

Qeyd etməliyik ki, 2021-ci il 25 may tarixində Sosial Ədalət Mərkəzinin ərizəsi əsasında PHHŞ Gürcüstan Əmək Müfəttişliyi Akelik qrup Açıq Səhmdar cəmiyyətinin filialını təftiş etməyə başladı. Təftiş çərçivəsində Əmək Qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydaların pozulduğu aşkarlanmışdır - əmək müqaviləsinin forması, məzmunu, iş saatlarından əlavə işləməyin, iş vaxtının uçotu və maaş Əmək Məcəlləsinə uyğun deyildi. 2021-ci il 25 avqust tarixində Müfəttişliyin qərarı ilə şirkətə cərimə kəsildi və göstərilən pozuntuları aradan qaldırmaq üçün müvafiq göstərişlər verildi. Qeyd etmək lazımdır ki, şirkət həmin qərarı şikayət etməklə işçilərin hüquqlarının qorumasının qeydinə qalmadığını, problemin vaxtlı həllində deyil, prosesləri uzatmaqla vəziyyətin daha da ağırlaşmasında maraqlı olduğunu təsdiq etmişdir. Açıq məlumata əsaslanaraq, aydın olduğu kimi, bu şirkət üçün belə fəaliyyət göstərmək və işçilərin hüquqlarını bu cür pozmaq səciyyəvidir. Şirkət tərəfindən zərərçəkən şəxslərin sayı həm Gürcüstanda, həm də onun hüdudları kənarında günbəgün artmaqdadır. Şirkətin həm özəl şəxslər, həm də dövlətlər qarşısında ağır maliyyə öhdəlikləri vardır. Yalnız Gürcüstanda Akelik qrup filialına qarşı bir neçə icra probasiya tələbi qaldırılıb və hələ də başa çatmayıbdır. Bundan əlavə şirkət borclular reyestrində qeydiyyatdadır. Bu halda Dövlət tərəfindən zərərçəkən yüzlərlə vətəndaşa ki, onlar ağır iş şəraitində çəkdikləri zəhmətin müqabilində əmək haqlarını belə ala bilmirlər, müvafiq dəstək vermək çox əhəmiyyətlidir.

Sosial Ədalət Mərkəzi zəhmətkeşlərin ədalətli tələblərini dəstəkləyir və onların maraqlarını məhkəmədə qoruyacaqdır. Ümid edirik ki, əmək hüquqlarının kobudca pozulması faktına məhkəmə vaxtlı və effektli reaksiya verəcək və tələblərimizi tamamilə təmin edəcəkdir.